İPƏK YOLU, No.3, 2024, səh.22-28
https://doi.org/10.30546/SI.2024.2.3.306

# AQRAR SAHƏNİN İNNOVATİV İNKİŞAFININ İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİYİ

**Xəyalə Balayeva**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: m.xayala@bk.ru

**Xülasə.** Beynəlxalq iqtisadi münasibətlər sisteminə innovasiyanın, eləcə də innovativ inkişaf tendensiyalarının təsirinin olduğu kimi, aqrar sahədə də istehsalın və iqtisadi səmərəliliyinin yüksəldilməsinə zərurət yaranmışdır. Məqalədə aqrar sahənin inkişafında istehsal amillərinin səmərəli istifadə olunması, kənd təsərrüfatında innovativ layihələrin məhsuldarlığa verdiyi töhfələr, eyni zamanda aqrar sahənin inkişafının iqtisadi və sosial səmərəliliyə təsiri təhlil olunmuşdur.

**Açar sözlər:** Aqrar sahə, innovasiya, iqtisadi səmərəlilik, sosial səmərəlilik.

## ECONOMIC AND SOCIAL EFFICIENCY OF INNOVATIVE DEVELOPMENT IN THE AGRICULTURAL SECTOR

**Xayala Balayeva**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract.** There has been a necessity for the enhancement of production and economic efficiency in the agricultural sector, similar to the impact of innovation on the international economic relations system and innovative development trends. This article discusses the efficient utilization of production factors in the development of the agricultural sector, the benefits of innovative projects in rural entrepreneurship and the economic and social impact of agricultural sector development.
**Keywords:** Agricultural sector, innovation, economic efficiency, social efficiency.

## ЭКОНОМИЧЕСКАЯ И СОЦИАЛЬНАЯ ЭФФЕКТИВНОСТЬ ИННОВАЦИОННОГО РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА

**Хаяла Балаева**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** Как и влияние инноваций и тенденций инновационного развития на систему международных экономических отношений, возникает необходимость повышения производственно-экономической эффективности и в аграрном секторе. В статье проанализировано эффективное использование производственных факторов в развитии аграрного сектора, вклад инновационных проектов в сельском хозяйстве в производительность труда, а также влияние развития аграрного сектора на экономическую и социальную эффективность.
**Ключевые слова:** Сельское хозяйство, инновации, экономическая эффективность, социальная эффективность.

## 1. Giriş

Mövcud iqtisadi şəraitdə iqtisadiyyatda rast gəlinən durğunluq tendensiyalarının minimum zərərlə aradan qaldırılması, istehsalın artırılması və iqtisadi səmərəliliyin yüksəldilməsinə istiqamətində tədbirlərin həyata keçirilməsi zəruri hal almışdır. Bazar iqtisadiyyatı münasibətlərinə xas olan proseslər inkişaf etdikcə elmi-texniki araşdırmaların aqrar sahədə tətbiq edilməsi məhsuldarlığın artırılmasını, iqtisadi və sosial səmərəliliyin yüksəldilməsini şərtləndirir. Müasir dövrdə həm elmi-texniki, həm də innovasiya fəaliyyətinin nəzəri, metodoloji əsaslarının mənimsənilməsi kənd təsərrüfatında innovativ sistemin formalaşdırılması metodologiyasının işlənib-hazırlanmasını zəruri edir [10]. Son dövrlər

ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə bir çox layihələr həyata keçirilməsi qeyri-neft sektorunun inkişaf etdirilməsinə təkan vermişdir. Aqrar sferada inkişaf mexanizminin səmərəliliyi hər bir subyektin fəaliyyətinin nəticələrindən asılılıdır. Bu sahədə fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin və əməkdaşlığının təşkili formalarının müxtəlifliyi, kənd təsərrüfatı müəssisələrinin stimullaşdırma mexanizmləri və onların informasiya dəstəyi ilə təmin edilməsi, kənd təsərrüfatında müxtəlif hüquqi-təşkilati formaların yayılması və s. aqrar sahənin inkişafını şərtləndirən əsas prioritet istiqamətlərdəndir [11].

## 2. Aqrar sahənin inkişafının iqtisadi-sosial səmərəliliyə təsiri

Hazırda dünya təsərrüfatında, o cümlədən aqrar-sənaye sahələrinin inkişaf tendensiyasında belə bir fikir formalaşmışdır ki, kənd təsərrüfatında səmərəliliyi müəyyən etmək üçün ümumiləşdirilmiş iqtisadi səmərəlilik göstəricisi istehsalın bütün nəticələrini əks etdirməlidir. Buraya məhsulun keyfiyyəti, istehsalın həcmi, istehsal vahidinə sərf olunmuş xərc və s. daxildir. Sadalanan səmərəlilik göstəricilərinin ümumi sistemindən istifadə etməklə aqrar sahədə davamlı olaraq həyata keçirilən innovativ tədbirlərin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə nail olmaq olar [2]. Eyni zamanda aqrar bazarın iqtisadi rolu, onun islahatlar şəraitində inkişaf dinamikası və tələbatın ödənilməsi də səmərəlilik göstəriciləri ilə müəyyən olunur. Aqrar bazar ümumilikdə iqtisadi transformasiyasının obyekti kimi digər sahələrin də səmərəli təşkili ilə iqtisadi artımda və sosial məqsədlərin reallaşmasında özünü göstərir. İlkin növbədə aqrar bazar münasibətləri, iqtisadi artımın tərkib hissəsi olmaqla, əmək tutumlu və kapital tələb edən sahə olmaqla yanaşı resurs artımının istifadəsi üçün obyekt rolunu oynayır. Aqrar bazarın strukturu, vahid səmərə əldə etmək üçün sistemləşdirilir. Belə ki, aqrar bazarın formalaşma sistemi regionda mövcud olan təsərrüfat obyektlərinin iqtisadi dövriyyəyə cəlb olunması və əhalinin məşğuliyyət strukturunun təkmilləşdirilməsi üzrə ixtisaslaşmalıdır. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində regionun iqtisadi potensialı zaman-zaman müəyyən çətinliklərlə üzləşə bilir. Bu kimi problemlərin həllində özəl və dövlət sektoruna aid müəssisələrin qarşılıqlı əməkdaşlığı, dövlətin iqtisadi siyasətdə həyata keçirdiyi tədbirlər, sosial təminat və mərkəzləşdirilmiş resurslar üzrə təchizatın sistemli olaraq həyata keçirilməsi mühüm rol oynaya bilər. Aqrar sektorun inkişaf sistemi yeni torpaqlara işçilərin cəlb edilməsi sosial səmərəlilik baxımından üstünlük təşkil edir. Məhsul istehsalının, müəssisənin, sahənin işinin səmərəliliyi istehsal xərclərinə nisbətən daha yüksək nəticə əldə etməsini nəzərdə tutan səmərənin mövcudluğunu xarakterizə edən amildir. Eyni zamanda dayanıqlı rəqabət mühiti, dünya standartlarına uyğun məhsul istehsal etmək potensialı da perspektiv inkişafın dəstəkləyici amili ola bilər. Buna görə də vahid səmərə aqrar bazarın fəaliyyətinin nəticəsində əhalinin və istehsal mənfəətinin, ona sərf olunan ümumi gətirilmiş gəlirlərə olan nisbət ilə mümkündür:

$$E = \frac{ƏH^g + döv^g + M^g}{\sum_{j=t}^{n} M_j} 100\%$$

Burada, $ƏH^g$ - əhali gəlirləri;

$döv^g$ – dövlət gəlirləri;

$M^g$ – sahibkar gəlirləri;
$M_j$ – bütün j obyektləri və fəaliyyətləri üzrə məsrəflərin vahid ölçüdə hesablanmış forması;
E – səmərəliliyin gətirilmiş qiymətidir [3].

Səmərəlilik təsərrüfat subyektlərinin fəaliyyətinin təşkilati, iqtisadi və sosial münasibətlərinin qarşılıqlı təsirini əks etdirir [3].

Elmi-texniki inkişafın səmərəliliyinin əsas meyarları:




**Qrafik 1.** Elmi-texniki inkişafın səmərəliliyinin əsas meyarları
**Mənbə:** [5]

Cədvəldən göründüyü kimi aqrar sahəni əhatə edən təsərrüfat fəaliyyətləri ölkənin bütün sferalarına təsirini göstərir. Belə ki, iqtisadi səmərəlilik müəyyən effekt əldə edilməsi, istehsaldan alınan gəlirin istehsal xərclərindən geniş təkrar istehsal aparılmasına imkan verəcək dərəcədə üstünlük təşkil etməsi ilə ifadə olunur. Sosial səmərəlilik sosial həyat şəraitinin yaxşılaşdırılması və sosial təminatın problemsiz qarşılanmasını nəzərdə tutur. Ekoloji səmərəlilik istehsalın həcminin artırılması şəraitində ekologiyanın qorunması, eyni zamanda ekoloji baxımdan əhalinin təhlükəsiz qidalarla təmin edilməsini nəzərdə tutur. Müasir dövrdə elmi-texniki biliklərin aqrar sahədə tətbiq edilməsi nəticəsində bu kimi göstəricilərin yüksəldilməsi istiqamətində müəyyən tədqiqatlar aparılır. Moskva Kənd Təsərrüfatı Akademiyasının alimləri tərəfindən aparılan araşdırmalara görə kənd təsərrüfatının səmərəlilik meyarlarını qiymətləndirərkən aşağıdakı şərtlər nəzərə alınmalıdır:

- İstehsal vasitələrindən ən az birini artırmadan istehsalın həcmini artırmaq mümkün deyildir;

- Müəyyən edilmiş istehsal amilini artırmadan və ya bir neçə məhsul növünün istehsalını azaltmadan istehsal amillərindən heç birini azaltmaq mümkün deyildir;

Bu göstəricilərə görə səmərəliliyi mütləq və nisbi (müqayisəli) kəmiyyətlərlə ifadə etmək olar. Səmərəliliyin səviyyəsinin ölçülməsi müqayisəli göstəricilərin nəticələrinə görə və ya alına biləcək maksimal nəticələrə görə təyin edilir [5].

Nəzərdə tutulmuş innovativ ideyanın və ya kompleks dəyişiklikliyin, sistemin səmərəsinin müqayisəli qiymətləndirilməsində məqsəd müvafiq göstəricilərin təhlil olunması əsasında ən çox uyğun olan göstəriciləri aşkar etməkdən ibarətdir.

## 3. Kənd təsərrüfatında innovasiya, iqtisadi və sosial səmərəlilik

Müasir dövrdə kənd təsərrüfatının dinamik inkişafı üçün innovasiyaların işlənib hazırlanması və tətbiq edilməsi əhəmiyyətli xarakter daşıyır. Bu, həm aqrar sahədə dayanıqlı inkişaf məsələlərinin həllinə, torpaq və su resurslarından səmərəli istifadə olunmasına, həm də ərzaq təhlükəsizliyinin təmin edilməsinə zəmin yaradır. Hazırda Azərbaycanda kənd təsərüfatı ilə bağlı innovativ layihələrin həyata keçirilməsi sürətləndirilmişdir. Burada inkişaf strategiyaları çərçivəsində funksional kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sisteminin yaradılması üçün aqrar sahə üzrə təhsil və tədqiqat müəssiələrinin fəaliyyətinin genişləndirilməsi baxımından zəruri tədbirlərin həyata keçirilməsi qarşıda duran mühüm vəzifələrdən biridir [12].

Kənd təsərrüfatı innovasiyaları istehsal prosesində istifadə olunan yeni və ya təkmilləşdirilmiş resurs və metodları əhatə edir. Bu amillərin tətbiq edilməsi həm istehsal həcminin, həm də iqtisadi və sosial səmərəliliyin artırılmasına təsir edən amillərdəndir. Eyni zamanda, kənd təsərrüfatı innovasiyası intensiv inkişaf strategiyasına əsaslanaraq mövcud torpaq, su ehtiyatlarını tükəndirmədən məhsuldarlığın artırılmasına, məhsul çeşidinin şaxələndirilməsinə, heyvanların populyasiyalarını artırmağa və s. yönəlmiş məqsədyönlü fəaliyyətdir. Ölkəmizdə innovasiya əsaslı aqrar-iqtisadi yüksəlişi təmin edən strategiyanın əsas komponentlərindən biri bitkiçilikdə yeni və səmərəli əkinçilik texnologiyalarının tətbiq etməklə məhsuldarlığın artırılması ilə yanaşı, məhsulun keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına doğru yönələn inkişaf metodudur. Bu inkişaf strategiyası çərçivəsində məhsul istehsalının keyfiyyətli olması və ərzaq təhlükəsizliyinin təmin olunması üçün genetik təmiz sortlardan istifadə etməklə məhsuldarlığı artırmaq mümkündür. Tədqiqatlar göstərir ki, iqtisadi innovativ tədbirlərlə yanaşı, bu sahədə sosial təminatın qarşılanması üçün bitkiçilik məhsulları arasında minimal istehlak səbətinə daxil olan bitki komponentinə diqqət ayırmaq lazımdır.

Əldə olunan məlumatların təhlili ilə aqrar iqtisadiyyatın elmi əsaslarının işlənilməsində və bu sahədə gələcək inkişaf mexanizminin hazırlanmasında informasiya dəstəyinin olunmasında sistemin iştirakı olduqca vacibdir. Aşağıda kənd təsərrüfatı məhsullarının istehsalı üçün əlaqəli sxem verilmişdir.




**Sxem 2.** Kənd təsərrüfatı məhsullarının istehsalı
**Mənbə:** [14]

İlkin araşdırmalar nəticəsində tədqiqatı əhatə edən bitki növləri - dənli taxıl bitkiləri, dənli paxlalılar, tərəvəz-bostan bitkiləridir. Müvafiq tədqiqatlara və bölgənin xarakteristikasına uyğun ölkə üçün prioritet sayılan bitki növlərinin Azərbaycanda yaradılmış və kolleksiyalarda olan bitki nümunələri istifadə edilməlidir. Toplanmış məlumatlar və innovativ fəaliyyət əsasında resurslardan səmərəli istifadə olunması mexanizmləri mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahə üzrə dünyanın iqtisadi və sosial mərkəzlərinin apardığı tədqiqatlara görə, 1 ha münbit torpaq ərazisi 4-5 nəfərdən ibarət ailənin tam təminatına zəmanət verir. Bu hesablamalar göstərir ki, ölkə ərazisində ərzaq təhlükəsizliyini təmin etmək üçün bütün yararlı torpaq sahələri dövriyyəyə verilməlidir. Belə ki, əkin sahələrinin səmərəli istifadə olunması və onların digər fəaliyyət sahələri üçün ayrılması qadağan olunmalıdır. Buna görə də torpaq sahələrinin eroziyaya uğramasının, şoranlaşmasının, səhralaşmasının qarşısı alınmalıdır. Hazırda respublikada 495166 hektar suvarılan torpaq sahəsində meliorativ tədbir görülməsi tələb olunur [1]. Ölkədə kənd təsərrüfatının innovativ inkişafını təmin etmək üçün torpaqların düzgün istifadəsi ilə yanaşı, innovativ əkinçilik texnologiyalarının tətbiq olunması, müasir becərmə texnologiyalarından istifadə etmək, növbəli əkin sistemini formalaşdırmaq və s. kimi əlverişli üsullardan istifadə etmək zəruri hal almışdır. Aqrar sahənin eləcə də, kənd təsərüfatının daha da zənginləşdirilməsi üçün əsas prioritet istiqamətlər seçilməli, istehsal funksiyaları artırılmalıdır.

Kənd təsərrüfatının istehsal səmərəliliyinin yüksəldilməsi yollarından biri də əkin sahələrindən və hər baş mal-qaradan əldə olunan məhsul çıxımı hesab olunur. Nəzəriyyəyə görə müəyyən kəmiyyətdə olan torpaq sahəsinə istənilən həcmdə kapital qoyuluşu müvafiq nəticələrlə müşayiət oluna bilirsə, bu eyni zamanda iqtisadi-texniki və mədəni inkişaf səviyyələrindən asılıdır. Təbii ki, kapital qoyuluşunun səmərəli istifadə olunması intensivləşmə prosesinin müəyyən bir hissəsidir. Kənd təsərrüfatının intensivləşməsinin iqtisadi səmərəliliyi aşağıdakı göstəricilərlə ifadə olunur.

- Vahid torpaq sahəsindən əldə olunan məhsulun çıxımı;
- Kənd təsərrüfatına yararlı olan torpaqların hər hektarından əldə olunan ümumi gəlir;
- Hər vahid əmək xərclərinə düşən ümumi məhsulun həcmi;
- Ümumi məhsulun, ümumi gəlirin və xalis gəlirin əsas və dövriyyə istehsal fondlarının dəyərinə cəminin nisbəti ilə hesablana bilər;

Beləliklə, kənd təsərrüfatında intensivləşmənin əsas məqsədi məhsul istehsalının yaxşılaşdırılması yolu ilə əhalinin daim artan tələbatının ödənilməsidir [4]. Bundan başqa, səmərəlilik göstəricisi kimi istehsalçının ərzaq səbəti, istehsalın gəlirliliyi və kənd təsərrüfatına dotasiyanın məbləği kimi göstəricilərin təhlili və müəyyən edilməsi də nəzərə alınmalıdır. İqtisadi səmərəliliyin müəyyən edilməsi üçün istehsalın aşağıdakı göstəricilərinin nəzərə alınması tələb olunur: kənd təsərrüfatı məhsullarının maya dəyəri, rentabellik səviyyəsi, mövcud qiymətlərlə ümumi məhsulun dəyəri, ümumi gəlir, mənfəət, bir nəfərə düşən məhsul istehsalının həcmi və s. kimi göstəricilərdən istifadə oluna bilər. Sosial səmərəliliyin əsas göstəriciləri kimi isə bir nəfər orta illik işçi hesabı ilə istehlak fondunun həcmi, real gəlir səviyyəsi, əmək haqqı səviyyəsi, əhalinin demoqrafik geniş təkrar istehsal göstəriciləri, 1 nəfərin cari istehlakı, real gəlirlə minimum yaşayış arasındakı nisbət və s. Göründüyü kimi, bu göstəricilər aqrar sahənin inkişafına və bu sahədə istehsal olunan məhsulların səmərəliliyinə müxtəlif səviyyədə təsir edir [6].

**Nəticə.** Araşdırmalar göstərir ki, aqrar sahədə innovativ inkişafın iqtisadi və sosial səmərəliliyə təsiri xüsusi əhəmiyyət kəsb edir. Müasir şəraitdə müxtəlif texnika və texnologiyaların istifadəsi, eləcə də innovativ tədbirlərin həyata keçirilməsi həm məhsuldarlığın artırılmasına, həm də əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradır. Xüsusilə, kənd təsərrüfatının müasir texnologiyalarla təmin edilməsi, yeni əkin sahələrinin becərilməsi bu istiqamətdə görülən tədbirlərin zəruriliyini müəyyən edir. Bunun üçün görülən tədbirlərə kənd təsərrüfatının müasir texnikalarla təmin edilməsi, kredit mexanizminin formalaşdırılması aqrar sahəyə verilən töhfələrdən biri ola bilər. Tədqiqatlar göstərir ki, aqrar sahənin inkişafı üçün dövlətin dəstəyi də vacibdir. 2016-cı ildə qəbul edilən Strateji yol xəritəsində aqrar sektorda maliyyə, kredit, vergi və s. mexanizmlərin səmərəliliyi bu sahənin inkişafı üçün prioritet istiqamətlərdən biri hesab olunur. Bugünkü gündə fermerlərin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində dövlətin dəstəyi texnikaların yanacaq və sürtkü məhsulları ilə təmin edilməsində xərclərin yarısını qarşılamaqdan, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların fermerlərə güzəştlə satılması, aqrolizinq xidmətlərinin göstərilməsi, dərman və pestisidlərin güzəştli qiymətlərlə satılması və s. ibarətdir. Bütün bunlar kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılması, ölkənin iqtisadi göstəricilərinin yüksəldilməsi, eləcə də, əhalinin sosial təminatnın yaxşılaşdırılmasına gətirib çıxarır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə "Strateji Yol Xəritəsi" (2016), Bakı, 224.
2. Şirinzadə F.Q., Mahmudov E.H. (2018), Aqrar sahənin problemləri və inkişaf perspektivləri. ADAU-nun elmi əsərləri, No.1. Gəncə, ADAU-nun nəşriyyatı.
3. Abbasov T. (2018), Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı, ADPU-nun mətbəəsi, 143-159.
4. Abbasov V.H. (2012), Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, MBM nəşriyyat, 104-112.
5. Əhmədov G.Ə. (2006), Azərbaycanın Aqrar sahəsində innovasiyaların mənimsənilməsi sisteminin yaradılması. Bakı, Nurlar nəşriyyat və poliqrafiya mərkəzi, 104-110.
6. Əlibəyov N. (2014), Təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmi. Bakı, MBM nəşriyyat, 20-44.
7. Əliyev İ.H. (2006), Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, AzTU-nun mətbəəsi, 73-83.
8. Təmrazov T.H. (2020), Aqrar sahənin inkişafının sürətlənməsində innovasiyaların rolu. Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktiki jurnalı, No.4, Bakı.
9. Babayev F.F. (2017), Azərbaycan iqtisadiyyatında aqrar sahənin rolunun artırılması və aqrar bazarın formalaşdırılması. Kooperasiya elmi-praktiki jurnalı, No.1, Bakı.
10. Mirzəyev İ.Ş. (2020), Aqrar sferanın iqtisadi mexanizminin inkişaf xüsusiyyətləri. Kooperasiya elmi-praktiki jurnal, No.3, Bakı.
11. World Bank. (2012), Agricultural Innovation Systems: An Investment Sourcebook. Agricultural and Rural Development. http://hdl.handle.net/10986/2247 License: CC BY 3.0 IGO.
12. https://agroeconomics.az/az/article/2047/azerbaycanda-kend-teserrufati-innovasiyalarinin-te/
13. https://agroeconomics.az/az/article/37/aqrar-sahenin-innovasiyali-inkisafinin-prioritet-i/
14. https://www.stat.gov.az/menu/4/e-reports/az/05/005p.php
15. https://etsim.az/upload/File/documents/04-2022/documents-14-fileaz.pdf